«DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR»

Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən

"TƏSDİQ EDİLMİŞDİR"

"PAŞA Bank" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının "17" oktyabr 2019-cu il tarixli Qərarı ilə

# "PAŞA Bank"
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN NİZAMNAMƏSİ
(yeni redaksiyada)

**Bakı - 2019**

## 1. Ümumi müddəalar

1.1 "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti (Nizamnamədə bundan sonra "Bank" adlandırılacaq) müstəqil təsərrüfat subyekti olmaqla, öz fəaliyyətini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasını, Mülki Məcəlləsini, "Banklar haqqında" Qanununu, maliyyə bazarlarına nəzarət orqanının və Azərbaycan Respublikası Mərkəzi Bankının normativ aktlarını, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını və bu Nizamnaməni rəhbər tutur.

1.2 Bu nizamnamə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 18 iyun 2007-ci il tarixdə 1107-A3-455 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmış "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyətinin yeni redaksiyada verilmiş nizamnaməsidir.

1.3 Bankın təşkilati-hüquqi forması: Açıq Səhmdar Cəmiyyətidir.

1.4 Bankın səhmləri açıq abunə yazılışı və sərbəst satış vasitəsilə yayılır.

1.5 Bankın tam adı: Azərbaycan dilində – "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti; qısaldılmış adı: "PAŞA Bank"dır. İngilis dilində isə tam adı – "PASHA Bank" Open Joint Stock Company, qısaldılmış adı – "PASHA Bank".

1.6 Bank, firma nişanına (loqotipə), bank hesablarına, blanklara, müvafiq ştamplara, üzərində Azərbaycan dilində "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti" yazılmış möhürə və müstəqil balansa malikdir.

1.7 Bank öz öhdəliklərinə görə bütün əmlakı ilə məsuliyyət daşıyır.

1.8 Bankın səhmdarları onun öhdəliklərinə görə yalnız onlara məxsus olan səhmlərin dəyəri həddində məsuliyyət daşıyırlar.

1.9 Bankın hüquqi ünvanı: Bakı şəhəri, AZ 1005, Səbail rayonu, Yusif Məmmədəliyev küçəsi, 13.

1.10 Bank qeyri-müəyyən müddətə yaradılır.

## 2. Bankın məqsədi və fəaliyyət növləri

2.1 Bankın əsas məqsədi mənfəət götürməkdən ibarətdir.

2.2 Yuxarıda göstərilən məqsədinə uyğun olaraq, Bank aşağıdakı fəaliyyət növlərini həyata keçirir:

2.2.1 tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

2.2.2 kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən, istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və kreditləşdirmənin digər növləri;

2.2.3 fiziki və hüquqi şəxslərə hesabların açılması və aparılması, o cümlədən Bankların müxbir hesablarının açılması və aparılması;

2.2.4 klirinq, hesablaşma-kassa xidməti, pul vəsaitlərinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;

2.2.5 ödəniş vasitələrinin (o cümlədən, kredit və debet kartlarının, yol çeklərinin, Bankın köçürmə veksellərinin) buraxılması;

2.2.6 öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən, çeklərin, köçürmə veksellərinin və borc öhdəliklərinin), qiymətli metal və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, forvard müqavilələrinin, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların, həmçinin valyuta,

səhm, istiqraz, qiymətli metallar və ya faiz dərəcələrinə aid olan digər törəmə vasitələrin alqı-satqısı;

2.2.7 qiymətli metalların əmanətlərə cəlb edilməsi və yerləşdirilməsi;

2.2.8 öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi, öz hesabına və ya müştərinin hesabına akkreditivlərin açılması;

2.2.9 Öz hesabına və ya müştərinin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;

2.2.10 maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;

2.2.11 kreditlərə və ya kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlərin göstərilməsi;

2.2.12 sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaq və ya seyf qutularında saxlamaq);

2.2.13 qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi;

2.2.14 Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

2.3 Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, həyata keçirilməsi üçün müvafiq xüsusi razılıqların (lisenziyaların) alınması lazım olan fəaliyyət növü Bank tərəfindən yalnız müvafiq xüsusi razılıqların (lisenziyaların) alınmasından sonra həyata keçirilə bilər.

2.4 Bank qanunvericiliklə müəyyən edilən və icazə verilən hallar istisna olmaqla, topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul olmur və sığorta təşkilatları istisna olmaqla, müvafiq təşkilatlarda payçı, tərəfdaş və ya şərik kimi iştirak etmir.

## 3. Bankın hüquq və vəzifələri

3.1 Bank idarə edilməsini və fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirir.

3.2 Bank Azərbaycan Respublikası və xarici dövlətlərin ərazisində, Azərbaycan Respublikasının və xarici dövlətlərin qanunvericiliyinin tələblərinə uyğun olaraq filial, nümayəndəlik və şöbə açmaq, həmçinin hüquqi şəxs statusuna malik Bankın törəmə müəssisələrini yaratmaq hüququna malikdir.

3.3 Bank Azərbaycan Respublikası qanunvericilik aktları ilə nəzərdə tutulmuş qayda və şərtlərə riayət etməklə kredit təşkilatlarının assosiasiyalarına və digər birləşmələrinə qoşula bilər.

3.4 Bank Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq məhkəmələrdə iddiaçı və cavabdeh qismində çıxış edə bilər.

3.5 Bank, həmçinin Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan digər əmlak və şəxsi qeyri-əmlak hüquqlarına malikdir.

3.6 Bank öz öhdəliklərinə görə ona məxsus olan və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tələb irəli sürülə bilən əmlakı ilə məsuliyyət daşıyır. Bankın və dövlətin müvafiq öhdəlik götürdüyü hallar istisna olmaqla, bütün digər hallarda Bank dövlətin, dövlət isə Bankın öhdəliklərinə görə məsuliyyət daşımır.

3.7 Bank bank sirrinin qorunmasını təmin etməlidir.

3.8 Bank öz müştərilərini identifikasiya etməli, anonim bank hesablarının açılmasına yol verməməli və çirkli pulları yuyulması üzrə əməliyyatların qarşısını almalıdır.

3.9 Bank, həmçinin Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş digər öhdəlikləri yerinə yetirməlidir.

3.10 Bankın idarəetmə orqanları öz səlahiyyətləri çərçivəsində əmək qanunvericiliyi ilə müəyyənləşdirilən işəgötürənə məxsus səlahiyyətlərini, habelə əmək müqaviləsinin bağlanması, şərtlərinin dəyişidirilməsi, xitam verilməsi, xəbərdarlıq, intizam tənbehinin verilməsi, bu tapşırıqla əlaqədar rəsmiləşdirmələrin həyata keçirilməsi və digər səlahiyyətlərini Bankın daxili struktur bölmələrinin rəhbərlərinə və ya digər işçilərinə həvalə edə bilər.

**4. Bankın kapitalı**

4.1 Bankın nizamnamə kapitalı, səhmdarlar tərəfindən əldə olunmuş Bankın səhmlərinin nominal dəyərindən ibarətdir və 333.000.000 (üç yüz otuz üç milyon) manat təşkil edir.

4.2 Bankın nizamnamə kapitalı hər birinin nominal dəyəri 33.300 (otuz üç min üç yüz) manat olan 10.000 (on min) ədəd adi sənədsiz adlı səhmlərə bölünür.

4.3 Bankın nizamnamə kapitalı yalnız Bankın səhmdarlarının Azərbaycan Respublikasının milli valyutasında ödədiyi pul vəsaitlərindən təşkil olunur.

4.4 Bank maliyyə bazarlarına nəzarət orqanının qabaqcadan yazılı icazəsi olmadan səhmlərin satın alınması və ya səhmlərin nominal dəyərinin azaldılması zamanı onun dəyərinin ödənilməsi yolu ilə məcmu kapitalı azalda bilməz.

**5. Bankın səhmləri**

5.1 Bankın bütün səhmləri adi sənədsiz adlı səhmlərdir. Onlar öz sahibinə Bankın idarə edilməsində iştirak etmək və gəlir (dividend) əldə etmək hüququ verir.

5.2 Növbəti emissiyalar zamanı Bank adi səhmlərlə yanaşı imtiyazlı səhmlər də emissiya edə bilər. İmtiyazlı səhmlərin Bankın nizamnamə kapitalının ümumi həcmindəki payı 25 (iyirmi beş) faizdən artıq ola bilməz.

5.3 Əlavə buraxılan səhmlərin ödənilməsi qanunvericiliyə uyğun qaydada həyata keçirilir.

5.4 Səhmdarın Bankın səhmini ödəmək vəzifəsindən, o cümlədən bu vəzifədən onun Banka qarşı tələblərinin əvəzləşdirilməsi yolu ilə azad edilməsinə yol verilmir.

5.5 Bankın səhmləri Bankın səhmdarları olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxslərin varislərinə keçir.

5.6 Bankın səhmlərinin buraxılması, yerləşdirilməsi, dövriyyəsi və ya ləğvi Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

5.7 Bankın səhmlərinin birləşdirilməsi, xırdalanması və konvertasiyası Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

**6. Səhmdarların hüquq və vəzifələri**

6.1 Bahkın səhmdarı qismində Bankın bir və ya daha çox sayda səhminə sahib olan fiziki və ya hüquqi şəxs tanınır.

6.2 Bir neçə şəxsə bir səhm mənsub olduğu halda, onlar Banka münasibətdə bir səhmdar kimi çıxış edirlər və öz hüquqlarını nümayəndə vasitəsilə həyata keçirə bilərlər.

6.3 Hər bir adi səhm sahibinə eyni hüquqlar verir.

6.4 Bankın adi səhmlərinə sahib olan səhmdarların Bank tərəfindən əlavə buraxılan səhmləri satın almaqda üstünlük hüququ vardır. Səhmdarın həmin üstünlük hüququ səhmdarın emissiyadan qabaq Bankda malik olduğu paya mütənasib olaraq tətbiq olunur. Səhmdarlara əlavə emissiya olunmuş səhmlər digər maraqlı alıcılara təklif olunan şərtlərlə eyni şərtlərlə təklif olunmalıdır.

6.5 Bank səhmlərinin 5 faizinə sahib olan sahmdarlar növbədənkənar ümumi yığıncağının çağırılmasını tələb edə bilərlər.

6.6 Bundan əlavə Bankın səhmdarları aşağıdakı hüquqlara malikdirlər:

6.6.1 qanunvericiliklə və bu nizamnamə ilə müəyyən edilmiş qaydada bankın idarə edilməsində iştirak etmək, onun idarəetmə orqanlarına seçilmək və seçmək;

6.6.2 bankın səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

6.6.3 bankın xalis mənfəətindən dividend almaq;

6.6.4 bankın fəaliyyətinə xitam verildiyi halda, kreditorların tələblərinin, hesablanmış, lakin ödənilməmiş dividendlərin, həmçinin imtiyazlı səhmlərin ləğvetmə dəyərinin ödənilməsindən sonra qalan Bankın əmlakının müəyyən hissəsini əldə etmək;

6.6.5 qanunvericiliklə və bu Nizamnamə ilə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

6.7 Bank səhmdarlarının vəzifələrinə aiddir:

6.7.1 Qanunvericiliyə və (və ya) bu Nizamnaməyə əsasən məxfi hesab olunan və ya kommersiya, bank sirrini təşkil edən məlumatları üçüncü şəxslərə açıqlamamaq;

6.7.2 səhmdarların reyestrində ona aid olan məlumatlarda dəyişiklik barədə 10 (on) təqvim günü ərzində səhmdarların reyestr saxlayıcısına yazılı bildiriş vermək;

6.7.3 qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.8 Bank səhmdarlarının hüquq və mənafelərinin müdafiəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanun və normativ hüquqi aktlarına əsasən təmin edilir.

## 7. Bankın maliyyə hesabatlığı, mənfəəti və mənfəətinin bölüşdürülməsi.

7.1 Bankın ilk maliyyə ili, onun dövlət qeydiyyatından keçdiyi andan başlayır və həmin ilin 31 dekabr tarixinə kimi davam edir. Bankın hər növbəti maliyyə ili 1 yanvar tarixindən 31 dekabr tarixinədək olan dövrü əhatə edir.

7.2 Bank onun fəaliyyətini və maliyyə vəziyyətini əks etdirən mühasibat uçotunu aparmalı və hesabatlar hazırlamalıdır. Bank maliyyə hesabatlarını qanunvericiliyə və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlamalıdır.

7.3 Bankın maliyyə hesabatı, ayrıca olaraq Bankın və konsolidasiya əsasında (birləşdirmə əsasında) onun törəmə təsərrüfat cəmiyyətlərinin, filiallarının, şöbələrinin və nümayəndəliklərinin fəaliyyətini və maliyyə vəziyyətini əks etdirir.

7.4 Bankın xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır. Xalis mənfəətin Bankın maliyyə ili üzrə xalis mənfəətin bölüşdürülməsi Bankın səhmdarlarının ümumi yığıncağının qərarı ilə həyata keçirilir.

7.5 Qanunvericiliklə və Səhmdarların qərarı ilə müəyyənləşdirilmiş ayırmalardan sonra xalis mənfəətin yerdə qalan hissəsi səhmdarlar arasıda dividend şəklində bölüşdürülə bilər.

7.6 Bank dövriyyədə olan səhmlər üzrə qanunvericiliklə müəyyən edilmiş qaydada ümumi yığıncağın qərarına əsasən illik dividendlər ödəyir. Dividendlərin ödənilməsi üzrə Bankın öhdəliyi onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.

7.7 İmtiyazlı səhmlər üzrə dividend Bankın təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq imtiyazlı səhm sahiblərinə, bir qayda olaraq səhmin nominal dəyərinin müəyyən sabit faizi şəklində ödənilən vəsaitdir. Həmin vəsaitin ödənilməsini təmin etmək üçün Bank öz vəsaiti hesabına xüsusi fondlar yarada bilər.

7.8 Dividendlər və onların ödənilməsi qaydası haqqında qərar bankın Müşahidə Şurası təklifi ilə ümumi yığıncaq tərəfindən qəbul edilir.

7.9 Bank adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.

7.10 Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququnu verən imtiyazlı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür.

7.11 Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

7.12 Bankın xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından az olarsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Bank dividendləri elan edə və ödəyə bilməz.

7.13 Dividendlərin hesablanması və ödənilməsi qayda və prosedurları Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilmiş "Dividendlərin ödənilməsi Siyasəti"nə uyğun olaraq həyata keçirilir.

## 8. Səhmdarların ümumi yığıncağı

8.1 Bankın ali idarəetmə orqanı səhmdarların ümumi yığıncağıdır. Bank səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

8.1.1 Bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;

8.1.2 Bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;

8.1.3 Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə Bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;

8.1.4 digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək, Bankın filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;

8.1.5 növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;

8.1.6 Bankın büdcəsini qəbul və təsdiq etmək;

8.1.7 Bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək, İdarə Heyəti üzvlərinin mükafatlandırılması barədə qərar qəbul etmək.

8.1.8 Bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, əsasnaməsini təsdiq etmək, qanunvericiliyin tələbləri nəzərə alınmaqla Bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək və inzibatçılarla əmək münasibətləri üzrə digər qərarlar vermək;

8.1.9 Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Bankın inzibatçılarının Bank adından və bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;

8.1.10 Bank inzibatçılarının kommersiya maraqlarının açıqlanması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;

8.1.11 Bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;

8.1.12 nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, Bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə Bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;

8.1.13 Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;

8.1.14 Bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;

8.1.15 Azərbaycan Respublikası qanunvericiliyi və bu Nizamnamə ilə onun səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

8.2 Nizamnamənin 8.1.2 - 8.1.7-ci bəndləri ilə səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərin həll edilməsi bankın Müşahidə Şurasına həvalə edilir.

8.3 Səhmdarların ümumi yığıncağı bütün səsvermə hüququ olan səhmlərin azı 60 (altmış) faizinin sahibi olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

8.4 Nizamnaməyə əlavə və dəyişikliklər edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin və azad edilməsi, Bankın satılması, yenidən təşkili, başqa bankın alınması və Bankın fəaliyyətinə xitam verilməsi məsələləri üzrə qərarlar yığıncaqda təmsil edilən səhmdarların 75 (yetmiş beş) faiz səs çoxluğu ilə qəbul olunur.

8.5 Banka aidiyyəti olan şəxslə dəyəri bankın aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar bank tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və səsvermədə iştirak etmək hüququ olan səhmdarların ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilir.

8.6 Bütün digər qərarlar yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur.

8.7 Səhmdarlar, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, Bankın nizamnamə kapitalındakı paylarına mütənasib səs hüququna malikdirlər.

8.8 Hər bir səhmdar səhmdarların ümumi yığıncağında öz səs hüququnu həm şəxsən, həm də səlahiyyətli nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Etibarnamə yazılı şəkildə tərtib olunur və yığıncağın protokoluna qoşulur. Etibarnamə yığıncaq başlanana qədər verilir. Səhmdarları qanunvericiliyə əsasən təmsil edən şəxslər üçün ayrıca etibarnamə tələb olunmur. Həmin şəxslər bu səlahiyyətləri təsdiq edən sənədi təqdim edirlər.

8.9 Səhmdarların növbəti və növbədənkənar yığıncaqları keçirilə bilər. Səhmdarların növbəti ümumi yığıncağının gündəliyin layihəsi və gündəliyə dəyişikliklərin təqdim etmək qaydaları yığıncağın keçirilməsi gününə ən azı 55 (əlli beş) təqvim günü qalmış səhmdarlara göndərilir. Növbəti 5 iş günü ərzində səhmdarlardan gündəliyə əlavələr qəbul edilir. Səhmdarların ümumi yığıncağının keçirilməsi tarixinə ən azı 45 (qırx beş) təqvim günü qalmış onun keçirilməsi günü, yeri, vaxtı və gündəlik üzrə materiallarla tanış olma qaydası barəsində bildirişlər, habelə həmin yığıncağın gündəliyinin yekun

variantı səhmdarlara göndərilir və bu barədə kütləvi informasiya vasitələrində məlumat dərc etdirilir. Bildirişlə birlikdə göndərilən gündəliyə daxil edilməmiş məsələlər üzrə qərarın qəbul olunmasına yol verilmir. Növbəti yığıncaqlar ildə bir dəfədən az olmayaraq keçirilir. Növbəti yığıncaqlar hər il üçün Bankın maliyyə hesabatı tərtib edildikdən və kənar auditor yoxlamasından sonra ən geci 2 (iki) ay ərzində keçirilir.

8.10 Növbədənkənar yığıncaqlar səsvermə hüququ olan səhmlərin azı 5 (beş) faizinin sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağırıla bilər. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

8.11 Səhmdarların növbədənkənar ümumi yığıncağının çağrılması qaydası və müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

8.12 Səhmdarların yığıncağında səsvermə hüququna malik olan bütün səhmdarlar təmsil olunmuşdursa, yığıncaq onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır. Səsvermə hüququna malik olan səhmdarların hamısı yekdilliklə razılıq verərsə, bu yığıncaq gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər.

8.13 Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar 15 (on beş) təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

8.14 Səhmdar ümumi yığıncağın qərarından məhkəməyə şikayət edə bilər.

## 9. Müşahidə Şurası

9.1 Bankın idarə olunmasına və işinə nəzarəti öz səlahiyyətləri hüdudunda Bankın Müşahidə Şurası həyata keçirir.

9.2 Müşahidə Şurası 3 nəfərdən az olmamaqla tək sayda üzvlərdən ibarətdir.

9.3 Şuranın üzvləri Bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən səhmdarlardan və/və ya kənar şəxslərdən 3 (üç) ildən çox olmayan müddətə təyin edilən fiziki şəxslərdir. Şuranın üzvləri yenidən növbəti müddətə seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir. Səhmdarların ümumi yığıncağında Müşahidə Şurası üzvlərinə bankın bölüşdürülməmiş mənfəətindən faiz şəklində və ya əmək haqqı formasında muzd ayrılması barədə qərar qəbul edilə bilər.

9.4 Müşahidə Şurasının üzvlüyünə yalnız ali iqtisadi və ya hüquqi təhsilə malik, yaxud təhsilindən asılı olmayaraq maliyyə idarələrində fəaliyyət strategiyasının müəyyən edilməsi və qərarların qəbul edilməsi prosesində iştirak etmək imkanı verən iş təcrübəsinə malik fiziki şəxslər seçilə bilər.

9.5 Bankın Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

9.5.1 Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən Bankın İdarə heyətindən hesabat almaq;

9.5.2 Səhmdarların ümumi yığıncağı və İdarə Heyəti üçün tövsiyyələr vermək;

9.5.3 Səhmdarların ümumi yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;

9.5.4 Bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bu pozuntu barəsində səhmdarların ümumi yığıncağını, Audit Komitəsini və İdarə Heyətini xəbərdar etmək, maliyyə bazarlarına nəzarət orqanına isə bank qanunvericiliyinin və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması faktları barədə bildiriş göndərmək;

9.5.5 Qüvvədə olan qanunvericiliyə müvafiq olaraq İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, səhmdarların ümumi yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq qanunvericiliyin tələblərinə cavab verən başqa şəxslərlə əvəz etmək;

9.5.6 bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək;

9.5.7 Bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelərin toqquşması olduğu halda Bankı idarə və təmsil etmək;

9.5.8 Bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək məqsədilə öz səlahiyyətləri çərçivəsində müvafiq siyasətləri, zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və tətbiq etmək;

9.5.9 Bankın kapital ehtiyatlarının yaradılması haqqında qərar qəbul etmək;

9.5.10 Qanunvericiliyin tələblərini nəzərə almaqla, Bankın nizamnamə kapitalının 50 faizindən artıq məbləğdə və bu Nizamnamədə nəzərdə tutulmuş hallarda bank adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;

9.5.11 Bankın xalis aktivlərinin dəyərinin iyirmi beş faizinədək məbləğdə olan əqdlərin bağlanması barədə qərar qəbul etmək;

9.5.12 səhmdarların ümumi yığıncağının səlahiyyətinə aid olan hallar istisna olmaqla, aidiyyəti şəxslərlə dəyəri bankın aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

9.5.13 Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanılması barədə qərar qəbul etmək;

9.5.14 Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;

9.5.15 Bankın müflis elan olunmasına, məcburi ləğvinə və ləğvedicinin təyin edilməsinə dair məhkəmənin qərarından Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada şikayət vermək;

9.5.16 Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, maliyyə bazarlarına nəzarət orqanının normativ aktları və bu Nizamnamə və Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiqlənmiş Müşahidə Şurasının Əsasnaməsi ilə nəzərdə tutulan digər səlahiyyətləri həyata keçirmək, o cümlədən səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş və Müşahidə Şurasına həvalə edilən digər məsələləri həll etmək.

9.6 Müşahidə Şurası Nizamnamənin 9.5.7-ci bəndində nəzərdə tutulan səlahiyyəti icra etməzdən əvvəl maliyyə bazarlarına nəzarət orqanına əsasları göstərməklə yazılı bildiriş göndərir və səhmdarların ümumi yığıncağının növbədənkənar iclasmı çağırır. Maliyyə bazarlarına nəzarət orqanı Müşahidə Şurasının qərarına dair öz münasibətini bildirə bilər.

9.7 Müşahidə Şurasının bu Nizamnamənin 9.5.5, 9.5.7 və 9.5.9-cu bəndlərinə əsasən qəbul etdiyi qərarlar səhmdarların ümumi yığıncağının növbəti iclasının gündəliyinə daxil edilməli və müzakirə olunmalıdır.

9.8 Müşahidə Şurasının iclasları 3 (üç) ayda bir dəfədən az olmayaraq keçirilir. İclasların çağırılması və keçirilməsi qaydaları Müşahidə Şurası haqqında Əsasnamə ilə müəyyən edilir.

9.9 Müşahidə Şurasının hər bir üzvü özünün və ailə üzvlərinin birbaşa və ya dolayısı ilə malik ola bildiyi mühüm kommersiya maraqlarını Bankın Müşahidə Şurası qarşısında açıqlayır. Belə məlumatlar həmin şəxslər Müşahidə Şurasının üzvü seçildikdə və sonrakı dövrlərdə bankın daxili qaydalarına müvafiq olaraq açıqlanır.

9.10 Müşahidə Şurasının üzvlərindən birinin marağı ilə bağlı məsələ müzakirəyə çıxarıldıqda həmin üzv öz marağı barəsində müzakirə başlamazdan əvvəl məlumat verməli, müzakirədə və qərarın qəbulunda iştirak etməməli, onun iştirakı isə yetərsayın müəyyən edilməsi zamanı nəzərə alınmamalıdır.

9.11 Bankın Müşahidə Şurasının üzvü mülkiyyətində olan Bankın səhmləri ilə bağlı əqd bağlamazdan əvvəl bu barədə məlumatı kütləvi informasiya vasitələrində açıqlamalıdır.

## 10. Bankın İdarə Heyəti

10.1 Bankın idarə olunması və fəaliyyətinə görə məsuliyyəti Bankın icra orqanı olan İdarə Heyəti daşıyır.

10.2 İdarə Heyətinin səlahiyyətlərinə Bankın cari fəaliyyətinin idarə edilməsi ilə bağlı bütün məsələlər daxil edilir. İdarə Heyəti səhmdarlarım ümumi yığıncağının və Müşahidə Şurasının qəbul etdiyi qərarların icrasını təmin edir.

10.3 İdarə Heyəti 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvləri Bank səhmdarlarının ümumi yığıncağı tərəfindən 3 (üç) ildən çox olmayan müddətə təyin edilir. Onlar növbəti müddətə yenidən seçilə bilərlər. İdarə Heyətinin sədri və sədr müavinini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada İdarə Heyətinin üzvlərindən təyin edilirlər. İdarə Heyəti sədrinin və sədr müavininin səlahiyyətləri İdarə Heyətinin əsasnaməsi ilə müəyyən edilir.

10.4 İdarə Heyətinin üzvlüyünə ali iqtisadi və ya hüquqi təhsilə və bank sistemində azı 2 (iki) illik iş stajına, yaxud ali təhsilə və bank sistemində azı 4 (dörd) illik iş stajına malik olan fiziki şəxslər seçilə bilər.

10.5 Bankın İdarə Heyətinin üzvləri maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən olunmuş qaydalara uyğun olaraq maliyyə bazarlarına nəzarət orqanında attestasiyadan keçirlər və attestasiyanın nəticələrinə görə maliyyə bazarlarına nəzarət orqanının verdiyi müsbət rəy əsasında öz vəzifələrinin həyata keçirilməsinə başlayırlar.

10.6 İdarə Heyəti iclaslarının keçirilməsi qaydaları Səhmdarların Ümumi Yığıncağı və ya Müşahidə Şurası tərəfindən təsdiq edilmiş İdarə Heyətinin Əsasnaməsinə uyğun olaraq müəyyən edilir. Bankın İdarə Heyətinin səlahiyyətlərinə, səhmdarların ümumi yığıncağının və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş məsələlər istisna olmaqla, Bankın cari fəaliyyəti ilə bağlı olan, o cümlədən bu Nizamnamə, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulan və ya Səhmdarların Ümumi Yığıncağı tərəfindən ona verilmiş bütün məsələlər daxil edilir.

10.7 İdarə Heyətinin hər bir üzvü özünün və ailə üzvlərinin birbaşa və ya dolayısı ilə malik ola bildiyi mühüm kommersiya maraqlarını Bankın Müşahidə Şurasına açıqlayır. Belə

məlumatlar həmin şəxslər İdarə Heyətinin üzvü seçildikdə və sonrakı dövrlərdə Bankın daxili qaydalarına müvafiq olaraq açıqlanır.

10.8 İdarə Heyəti üzvlərindən birinin marağı ilə bağlı məsələ müzakirəyə çıxarıldıqda həmin üzv öz marağı barəsində müzakirə başlamazdan əvvəl məlumat verməli, müzakirədə və qərarın qəbulunda iştirak etməməli, onun iştirakı isə yetərsayın müəyyən edilməsi zamanı nəzərə alınmamalıdır.

10.9 Bankın İdarə Heyətinin üzvü mülkiyyətində olan Bankın səhmləri ilə bağlı əqd bağlamazdan əvvəl bu barədə məlumatı kütləvi informasiya vasitələrində açıqlamalıdır.

10.10 Hər hansı əqdin bağlanması nəticəsində Bankın İdarə Heyətinin üzvünün şəxsi marağı ilə Bankın mənafeyi ziddiyyət təşkil etdikdə o, bu barədə Müşahidə Şurasına məlumat verməlidir. Həmin əqdin bağlanması yalnız Müşahidə Şurasının müvafiq qərarı əsasında həyata keçirilə bilər.

10.11 İdarə Heyəti Bankın cari (gündəlik) fəaliyyətinin idarə edilməsi və effektiv təşkil olunması üçün öz səlahiyyətləri çərçivəsində zəruri olan tənzimləyici sənədləri (qaydalar, prosedurlar, təlimatlar, metodologiyalar və s.) qəbul edir.

10.12 50 000 (əlli min) manat məbləğdən az pul vəsaitinin xeyriyyəçilik məqsədi ilə ayrılmasına dair qərar qəbul etdir.

10.13 Qanunvericiliyin tələblərini nəzərə almaqla, Bankın digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid olmayan və ya qanunvercıliklə digər idarəetmə orqanlarının qərarı əsasında İdarə Heyətinin səlahiyyətlərinə aid edilməsi mümkün olan və Bankın nizamnamə kapitalının 50 faizinədək məbləğdə olan əqdlərin bağlanması barədə qərar qəbul edir.

10.14 İdarə Heyəti Banka məxsus əmlakların icarəyə verilməsi və kredit qeyri-işlək olduğu halda Bankın xeyrinə kreditin təminatı qismində rəsmiləşdirilmiş əmlakın hərracdan alınmasına dair qərar qəbul etmək səlahiyyətlərinə malikdir.

## 11. Audit Komitəsi və daxili audit

11.1 Bankda müstəqil Audit Komitəsi və daxili audit bölməsi (departamenti, şöbəsi və s.) fəaliyyət göstərir.

11.2. Bankın Audit Komitəsi 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Komitənin üzvləri Müşahidə Şurası tərəfindən 3 (üç) ildən çox olmayan müddətə təyin edilir. Audit Komitəsinin üzvləri növbəti müddətə yenidən seçilə bilər.

11.3. Müşahidə Şurası Audit Komitəsinin üzvlərindən birini Komitənin sədri təyin edir. Audit Komitəsinin üzvlərinin əmək haqqı formasında muzdu Müşahidə Şurası tərəfindən təyin edilir.

11.4. Audit Komitəsinin üzvlüyünə yalnız ali iqtisadi və ya hüquqi təhsilə, yaxud təhsilindən asılı olmayaraq maliyyə idarələrində fəaliyyət strategiyasının müəyyən edilməsi və qərarların qəbul edilməsi proseslərində iştirak etmək imkanı verən iş təcrübəsinə malik olan fiziki şəxslər seçilə bilər.

11.5. İclasların keçirilməsi qaydaları Müşahidə Şurası tərəfindən təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq müəyyən edilir.

11.6. Audit Komitəsinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

11.6.1. bankın audit siyasətini və strategiyasını müəyyən etmək;

11.6.2. daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

11.6.3. kənar auditin təyin edilməsi ilə əlaqədar Bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;

11.6.4. kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyyələrinin həyata keçirilməsinə yardım etmək;

11.6.5. Bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr yaratmaq;

11.6.6. daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair səhmdarların ümumi yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;

11.6.7. Maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə nəzərdə tutulmuş səlahiyyətləri, habelə Səhmdarların Ümumi Yığıncağı tərəfindən ona verilmiş digər səlahiyyətləri həyata keçirmək.

11.7. Daxili audit bölməsi Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və bankın icra orqanı ilə qarşılıqlı surətdə Bankda daxili nəzarət və risklərin idarəedilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinə fasiləsiz nəzarəti həyata keçirir.

11.8. Daxili audit bölməsinin rəhbəri və əməkdaşları Audit Komitəsinin təqdimatı ilə Bankın Müşahidə Şurası tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

11.9. Daxili audit bölməsinin rəhbərliyinə namizəd ali iqtisadi və ya hüquqi təhsilin və bank sistemində azı 2 (iki) illik iş stajının olması, yaxud ali təhsilin və bank sistemində azı 4 (dörd) illik iş stajının olması kimi tələblərə cavab verməlidir.

11.10. Daxili audit bölməsinin rəhbərləri maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən olunmuş qaydalara əsasən maliyyə bazarlarına nəzarət orqanında attestasiyadan keçirlər və attestasiyanın nəticələri əsasında Maliyyə bazarlarına nəzarət orqanının verdiyi müsbət rəy alındıqdan sonra öz vəzifələrinin icrasına başlayırlar.

11.11. Bankda Audit Komitəsinin və daxili audit bölməsinin fəaliyyətinin standartlarını və qaydalarını maliyyə bazarlarına nəzarət orqanı müəyyən edir.

11.12. Audit Komitəsinin hər bir üzvü özünün və ailə üzvlərinin birbaşa və ya dolayısı ilə malik ola bildiyi mühüm kommersiya maraqlarını Bankın Müşahidə Şurasına açıqlayır. Belə məlumatlar həmin şəxslər Bankın Audit Komitəsinin üzvü seçildikdə və sonrakı dövrlərdə Bankın daxili qaydalarına müvafiq olaraq açıqlanır.

11.13. Audit Komitəsinin üzvlərindən birinin marağı ilə bağlı məsələ müzakirəyə çıxarıldıqda həmin üzv öz marağı barəsində müzakirə başlamazdan əvvəl məlumat verməli, müzakirədə və qərarın qəbulunda iştirak etməməli, onun iştirakı isə yetərsayın müəyyən edilməsi zamanı nəzərə alınmamalıdır.

## 12. Bankın yenidən təşkili və ləğvi

12.1 Bankın yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) səhmdarların ümumi yığıncağının qərarı ilə və maliyyə bazarlarına nəzarət orqanının qabaqcadan razılığı əsasında həyata keçirilə bilər.

12.2 Bank, Azərbaycan Respublikası qanunvericiliyində müəyyən edilmiş qaydada aşağıdakı hallarda ləğv edilə bilər:

12.2.1 Səhmdarların ümumi yığıncağının qərarı ilə.

12.2.2 Məhkəmənin qərarı ilə.

12.3 Bank müflis olma nəticəsində də ləğv edilir.

12.4 Bankın yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq həyata keçirilir

## 13. Yekun müddəalar

13.1 Bankın fəaliyyəti ilə əlaqədar olan, lakin bu Nizamnamə ilə tənzimlənməyən digər məsələlər Bankın idarəetmə orqanlarının qərarları və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq tənzimlənir.

13.2 Bankın Nizamnaməsində edilən dəyişikliklər Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınır. Bankın Nizamnaməsində və reqlamentində edilən dəyişikliklər beş təqvim günü müddətində maliyyə bazarlarına nəzarət orqanına təqdim edilir.

13.3 Bu Nizamnamənin müddəaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə ziddiyyət təşkil edərsə, Azərbaycan Respublikası qanunvericiliyinin müddəaları əsas götürülür.

«DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR»

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən

"TƏSDİQ EDİLMİŞDİR"

"PAŞA Bank" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının "24" iyun 2020-ci il tarixli Qərarı ilə

**"PAŞA Bank" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN 1700767721) Nizamnaməsinə dəyişikliklər**

Nizamnamənin 4.1. və 4.2.-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

4.1. Bankın nizamnamə kapitalı səhmdarlar tərəfindən əldə olunmuş Bankın səhmlərinin nominal dəyərindən ibarətdir və 354,511,800 (üç yüz əlli dörd milyon beş yüz on bir min səkkiz yüz) manat təşkil edir.

4.2. Bankın nizamnamə kapitalı hər birinin nominal dəyəri 33.300 (otuz üç min üç yüz) manat olan 10.646 (on min altı yüz qırx altı) ədəd adi adlı səhmlərə bölünür.

Dövlət qeydiyyatına alınmışdır:

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən

Təsdiq edilmişdir:

"PAŞA Bank" ASC-nin Səhmdarlarının ümumi yığıncağının 03.11.2025-ci il tarixli qərarı əsasında

**"PAŞA Bank" ASC Açıq Səhmdar Cəmiyyətinin nizamnaməsinə dəyişiklik**

**№2**

1. "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyətinin nizamnaməsinin 4.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"4.2. Bankın nizamnamə kapitalı hər birinin nominal dəyəri 20 (iyirmi) manat olan 17,725,590 (on yeddi milyon yeddi yüz iyirmi beş min beş yüz doxsan) ədəd adi, adlı, sənədsiz səhmə bölünür".

AZƏRBAYCAN RESPUBLİKASI
VERGİLƏR NAZİRLİYİ

KOMMERSİYA QURUMUNUN
DÖVLƏT QEYDİYYATI HAQQINDA

# ŞƏHADƏTNAMƏ

**QEYDİYYAT №(VÖEN)** **1700767721**

*Qeydiyyat orqanının adı* Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi

*Qurumun adı* **"PAŞA BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

*Ünvanı* AZ1005, BAKI ŞƏHƏRİ, SƏBAİL RAYONU, YUSİF MƏMMƏDƏLİYEV, ev 13

*Qeydiyyata alındığı tarix* 18.06.2007

*Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli Fərmanına əsasən "bir pəncərə" prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.*

**Seyidəhmədli Samir Əhməd oğlu**
Qeydiyyat orqanının rəhbəri 1 .11.2016

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi***

*Qurumun adı* "PAŞA BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Qeydiyyata alındığı tarix* 18.06.2007

*Əvvəlki dövlət qeydiyyat №* 1107-A3-455

*Dövlət qeydiyyat № (VÖEN)* 1700767721

*Təşkilati-hüquqi forması* Açıq səhmdar cəmiyyəti

*Sahibkarlıq subyektinin meyarı* İri sahibkar

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1005, BAKI ŞƏHƏRİ SƏBAİL RAYONU, YUSİF MƏMMƏDƏLİYEV, ev 13

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 354,511,800.00 manat

*Çıxarışın verildiyi tarix və №* 30.01.2026, 3-21-2-2-1/2-7935/2026

Cəfərova L.T.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi***

*Qurumun adı* "PAŞA BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 1700767721

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*

"BLESS" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ - 28.1796 %, "PAŞA HOLDİNG" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ - 56.8195 %, PAŞAYEV MİR CAMAL HAFİZ OĞLU - 5.0066 % və PAŞAYEV ARİF MİR CƏLAL OĞLU - 9.9944 %

*Müşahidə şurasının üzvləri* ALLAHVERDİYEV RÖVŞƏN ŞAMİL OĞLU, GEORGES HAIMARI JOSEPH, HÜSEYNOV ASƏF AKİF OĞLU, ƏLİYEVA ŞİRİN ELDAR QIZI, MƏMMƏDOV ŞAHİN ÇİNGİZ OĞLU

*Qanuni təmsilçi* QULİYEV CAVİD HƏSƏN OĞLU

*Çıxarışın verildiyi tarix və №* 30.01.2026, 3-21-2-2-1/2-7935/2026

Cəfərova L.T.